## Turizm sektorundan daxilolmalar artır

İqtisadiyyatın qeyri-neft sektorunun inkişafı tədbirləri çərçivəsində son illər Azərbaycanda turizm infrastrukturunun müasirləşdirilməsi və bu sahədə mövcud potensialın səmərəli şəkildə gerçəkləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sektorda aparılan islahatların strateji məqsədi respublikada qabaqcıl səviyyədə turizm mədəniyyətinin formalaşdırılması və xidmət səviyyəsinin davamlı şəkildə yüksəldilməsidir.

Mövcud potensial respublikanın dünya turizm xəritəsində layiqli yerini təmin etməsinə və rəqabətə davam gətirməsinə imkan verir. Əlverişli iqlim şəraiti, əsrarəngiz meşələri, çayları, şəlalələri, təbii gölləri, dağ massivləri, eləcə də nadir yaşayış məskənləri və tarixi mədəniyyət abidələri ölkəmizdə turizmi daha cazibəli vəziyyətə gətirir. Bundan başqa, son illər ayrı-ayrı bölgələrdə müasir tələblərə cavab verən istirahət mərkəzlərinin, hotellərin inşa edilməsi, yol-nəqliyyat infrastrukturunun müasirləşdirilməsi həm xarici, həm də yerli turistlərin bölgələrə marağını artırıb.

Əcnəbi turistlərin diqqətinin ölkəmizin səfalı guşələrinə cəlb edilməsi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən yeddi turizm marşrutu müəyyən olunub. Nazirlikdən bildirildiyinə görə, bunlardan dördü əsas, üçü əlavə marşrut hesab edilir. Əsas turizm marşrutları Bakı-Xaçmaz, Bakı-Balakən, Bakı-Astara və Bakı-Qazax; əlavə marşrutlar isə Bakı-Abşeron yarımadası, Bakı-Dağlıq Qarabağ, Bakı-Naxçıvandır. Turizm zonalarının hər biri təbii gözəlliyi, zəngin bitki və heyvanat aləmi, təmiz havası, mineral bulaqları və s. ilə turistlərin diqqətini çəkir.

Cari turizm mövsümündə yerli və xarici turistlərə 500-dən çox turizm obyekti xidmət göstərir. «Turist-ekskursiya xidmətlərinin sertifikatlaşdırılmasının keçirilməsi qaydaları»na əsasən, 2011-ci ildə 83 mehmanxana və mehmanxana tipli obyekt dövlət təsnifatından keçib. Hazırda respublikada xüsusi razılıq əsasında 335 mehmanxana və 178 turizm şirkəti fəaliyyətdədir. Təkcə ötən il Azərbaycanda 30 mehmanxana və mehmanxana tipli obyekt istifadəyə verilib. Hazırda ölkə ərazisində daha 45 mehmanxana inşa edilir.

Turizm sektoru üzrə statistik hesablamalar da dünya təcrübəsinə uyğunlaşdırılaraq, yeni meyarlar əsasında aparılır. 2011-ci ilin statistik məlumatlarına əsasən, respublikada turizm sahəsində çalışan işçilərin sayı 7 min 739 nəfər təşkil edib. Ötən il Azərbaycana gələn əcnəbilərin sayı 2 milyon 239 min 141 nəfər olub ki, bu da 2010-cu illə müqayisədə 14,0% və ya 276 min 235 nəfər çoxdur. Hesabat ilində Azərbaycana gələn əcnəbi turistlərin sayı 1 milyon 836 min 226 nəfər olub. 2011-ci ildə respublikanın gəlmə turizmdən əldə etdiyi gəlir 966,3 milyon manat təşkil edib ki, bu da 2010-cu ilə nisbətən 59,5% çoxdur.

Turizm sahəsində ən böyük layihələrdən birinin - Qusar rayonunda «Şahdağ» Qış-Yay Turizm Kompleksinin tikintisi hesabat dövründə davam etdirilib. Birinci mərhələdə nəzərdə tutulan işlər artıq tamamlanıb, hazırda İsveçrə və Avstriya şirkətləri tərəfindən növbəti mərhələlər üzrə layihələndirmə işləri və marketinq araşdırmaları aparılır. Bu müasir turizm kompleksinin bu ilin qışında ilk müştərilərini qəbul edəcəyi gözlənilir.

Daxili turizmin təbliği və təşviqi məqsədilə 2012-ci ilin ilk yarısında bir sıra ölkələrdə «Azərbaycan mədəniyyəti günləri» və turizm sərgiləri təşkil olunub. Eləcə də Azərbaycanın turizm potensialını əks etdirən 45 və 60 saniyəlik reklam çarxları CNN, «Euronews», «Travel Channel» və «Eurosport» kimi nüfuzlu dünya telekanallarında nümayiş olunur. Belçikanın «Unicap Television» şirkəti isə Azərbaycanın turizm potensialına dair 13 dəqiqəlik film çəkib. Film iyul ayından etibarən Fransanın «TV5 MONDE» telekanalında yayımlanır. Bundan başqa, dünyamiqyaslı «BM» Voyager», «Business Year», ABTA jurnallarında və «MITT» sərgisinin rəsmi kataloqunda Azərbaycanın turizm potensialına dair reklam səhifələri yerləşdirilib.

Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Hacıyev bildirir ki, respublikanın bir sıra turizm obyektlərində qabaqcıl ölkələr səviyyəsində xidmətlər təşkil olunub. O, turistlərə göstərilən yeni xidmətlərin turizmin inkişafına yeni təkan verəcəyini düşünür: «Azərbaycanın iri turizm şirkətləri, hotelləri eynən Türkiyə təcrübəsi əsasında fəaliyyət göstərməyə başlayıblar. Daxili turizmdə yeniliklərdən biri də «aquapark» xidmətlərinin genişlənməsidir. Qiymətlərə gəlincə, Quba-Xaçmaz bölgəsində, səhər yeməyi də daxil olmaqla, adambaşına 30 manata dincəlmək mümkündür. Bu da qonşu ölkələrlə müqayisədə heç də baha qiymət sayılmır».

Nahid Hacıyevin sözlərinə görə, son vaxtlar turizm obyektlərində elektron xidmətlərdən və POS-terminallardan istifadə genişlənir: «Turizm obyektlərində POS-terminalların quraşdırılması prosesi, demək olar ki, başa çatıb və bu, turizmin səviyyəsinin yüksəldilməsi baxımından vacib addımdır. Hətta bir sıra hotellərdə elektron qaydada nömrə sifariş vermək mümkündür. Bütün bunlar isə ölkəmizə gələn turistlərdə razılıq doğurur».

S.MUSTAFAYEV